UOT 82
https://doi.org/10.59849/2311-8482.2024.2.28

SUNAY ƏSƏDOVA*

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN SƏNƏT YOLU

*Ədəbi, siyasi mühitdə öz aydın mövqeyi, amalı və mübarizliyi ilə seçilən Y.V.Çəmənzəminli yaradıcılığının başlıca ideya və qayəsi, milli intibah, maarif, vətənin layiqli övladı olmaq, azərbaycançılıq, vətənçilik idi. Yeri gəldikcə türkçülük haqqında da müsbət fikir söyləsə də, azərbaycançılığa üstünlük verirdi.*

*Mühit, bədii məkan və şəxsiyyət, tarixilik, millilik və müasirlik problemlərinin Çəmənzəminli yaradıcılığında konkret öyrənilməsi yeni və aktualdır. Bu, ədibin yaradıcılığının digər ideya-bədii xüsusiyyətlərinin aydınlaşdırılması üçün də əhəmiyyətlidir. Çünki təcrübə göstərir ki, yazıçının bir ziyalı, sənətkar və şəxsiyyət kimi yetişməsində mühit və məkan xüsusi rol oynayır. Bu baxımdan, təqdim etdiyimiz elmi-tədqiqat işində ideya-bədii cəhətdən zəngin yaradıcılığa malik dahi yazıçının sənət yoluna müxtəsər nəzər salınmış və ədibi formalaşdıran ictimai-siyasi mühit nəzərdən keçirilmişdir.*

**Açar sözlər:** *yaradıcılıq, mövzu dairəsi, yazıçı, ideya, ədəbi mühit.*

## Giriş

Azərbaycan elminin, ədəbiyyatının, ictimai-siyasi, fəlsəfi-estetik və etik fikrinin inkişaf tarixində özünəməxsus yeri və rolu olan şəxsiyyətlərdən biri də Yusif Vəzir Çəmənzəminlidir (1887-1943). Görkəmli yazıçı, alim, etnoqraf, demokrat və diplomat, pedaqoq kimi tanınmış Y.V.Çəmənzəminli özünün zəngin yaradıcılığı və dəyərli ictimai-siyasi fəaliyyəti ilə diqqəti həmişə cəlb edən simalardandır.

## Əsas təhlil

Y.V.Çəmənzəminlinin də milli mənafe naminə xidmət edən zəngin yaradıcılığının tədqiq edilən dövrünün mövzu dairəsini, möndəricəsini məhz həmin problemlər müəyyən elmişdir. O, yaradıcılığı boyu milli-ictimai geriliyi, ətaləti, nadanlığı, mövhumatı, haqsızlığı, zülmü, yadelli əsarəti və s. sadəcə tənqid etməyə deyil, mövcud vəziyyətdən çıxış yollarının tapılmasına daha çox üstünlük vermişdir. Bir çox ideya sələflərindən fərqli olaraq optimizm mövqeyindən çıxış edən Çəmənzəminlidə köhnəliyin tənqidindən çox, yeniliyin təsdiqi, onun ideya-nəzəri cəhətdən əsaslandırılması meyli daha güclü olmuşdur.

Y.V.Çəmənzəminli yaradıcılığının başlıca istiqamət və sahələrinə toxunmazdan əvvəl qeyd etmək lazımdır ki, onun gərgin fəaliyyətinin məndəricəsini məhz dövrünün ortaya qoyduğu və həlli hər şeydən əvvəl xalqın, ümumən millətin taleyi və mənafeyi ilə bağlı olan problemlər idi. Bu səbəbdəndir ki, nicat yolunu təqdir etdiyi milli demokratik azadlıq hərəkatında, milli istiqlalçılıqda görürdü. Məhz sinfilik yox, milli həmrəylik onun bütün şüurlu fəaliyytinin ruhunu, onun məğzini, aparıcı meylini təşkil edir. O, istər ədəbi-bədii, istərsə də elmi-publisistik fəaliyyətini məhz bu milli istiqlalçılıq amalı üzərində qurmuş və azad Azərbaycan idealının gerçəkləşməsinə yönəltmişdir [2, s. 23].Qeyd etmək lazımdır ki, Y.V. Çəmənzəminli Azərbaycan folkloru, tarixi, xalqın milli-mədəni tərəqqisi və azadlığı ilə bağlı fikir və mülahizəni yaradıcılığının birinci və ondan sonrakı dövründə yazdığı bədii əsərlərində - tarixi romanlarında qəhrəmanlarının dili ilə izhar etmişdir. Bir sözlə, Azərbaycan idealı, Azərbaycan mövzusu onun yaradıcılığının baş mövzusu, azərbaycançılıq və istiqlalçılıq ideyası fəaliyyətinin leytmotivi olmuşdur. Y.V.Çəmənzəminlinin zəngin, çoxcəhətli fəaliyyətindəki elmi-nəzəri, ədəbi-bədii, publisistik və ictimai-siyasi kimi aparıcı sahələr inkişaf etmiş, milli-mədəni tərəqqi, milli azadlıq məqsədinə xidmət etməkdə biri digərini tamamlamışdır.

Çarizmin qatı millətçilik və ictimai zülmü şəraitində xalqı milli özünüdərk istiqamətində maarifləndirib tərbiyə etmək əlbəttə, olduqca çətin və mürəkkəb bir iş olub böyük cəsarət və fədakarlıq tələb edirdi. Bütün bunlara baxmayaraq, hələ ali məktəb tələbəsi ikən Y.V.Çəmənzəminli həmin işdən əsla çəkinməmiş, bundan ötrü bütün var-qüvvəsini səfərbər etmişdir. Tərəqqi və azadlıq uğrunda hərəkatda milli özünüdərkə, milli özünütanımaya M.Ə.Rəsulzadə kimi mübariz istiqlalçılarla yanaşı birinci dərəcəli əhəmiyyət verən Y.V.Çəmənzəminli 1921-ci ildə İstanbulda nəşr etdirdiyi "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" kitabında yazırdı: "Milli hərəkatın inkişafı üçün ən əvvəl özümüzü

tanımalıyıq. Bunun üçün də keçmişimizi addım-addım tədqiq edib, məmləkətimizin maddi və mənəvi məhsullarını meydana çıxarmalıyıq. Bu gün nefti ilə aləmşümul olan Azərbaycan min sənə əvvəl məbədləri ilə Şərqin qibləsi idi. Yəni nəsilləri qədim məbədlərimizə doğru götürüb, onun qüvvəti ilə təkrar yüksəlməli və mənəviyyatımızı yenə aləmşümul etməli" [5, s.46].

XX əsrin əvvəllərində Azərbaycan ziyalılarını milli oyanış və azadlıqla əlaqədar ən çox məşğul edən problem milli-mədəni tərəqqi problemi idi. Bu da təsadüfi deyildi. Ölkə əhalisinin başdan-başa savadsız olduğu, mövhumatın, cəhalətin, nadanlığın, köhnəlmiş qayda-qanunların şüurlara hakim kəsildiyi bir zamanda sadədil insanları kütləvi halda birdən-birə milli oyanış, milli qurtuluş uğrunda mübarizəyə cəlb etmək heç də asan məsələ deyildi. Üstəlik, xalqın əsrlər boyu müstəqil dövlətçiliyindən, dövlətçilik məfkurəsindən məhrum edilməsi, milli müstəmləkə zülmü problemini daha da qəlizləşdirir, onun həlli yolunda əngəllər, maneələr, keçilməz sədlər yaradırdı. Bu səbəbdən də həmin vaxtlarda milli ziyalıların görkəmli nümayəndələri, eləcə də Y.V. Çəmənzəminli də XIX əsrin ikinci yarısı maarifçi realistlər kimi qələmə aldıqları mövzuları əsasən elm və maarifin üstünlüyü mövqeyindən işıqlandırır, elmin və maarifin ictimai həyatda rolu, xalqın tərəqqisində əhəmiyyəti, təlim və tərbiyə, yeni məktəb və təhsil, milli dil və mətbuat, insanların mənəvi-əxlaqi keyfiyyətlərinin yaxşılaşdırılması və təkamülü kimi məsələlərə daha çox diqqət yetirirdilər. Çünki "vətən, millət, məktəb, elm, maarif idealı hələ yaşayırdı, cəmiyyətdə bu ideal uğruıda başlanan mübarizə hələ başa çatmamışdı, əksinə yeni real məzmun kəsb etmiş, dövrün ən inqilabi məsələlərini həll etmək üçün vacib ideya-estetik bir vasitəyə çevrilmişdi" [7, s. 43].

Y.V.Çəmənzəminli yaradıcılıq fəaliyyətinə milli maarifçilik hərəkatı zəminində gəlmiş, sonralar isə ictimai fikrin dərindən siyasiləşməsi prosesində məfkurəcə daha da püxtələşmiş, formalaşmışdır. Maarifçilik hərəkatı Azərbaycanda milli-istiqlalçılıq hərəkatının təşəkkül tapmasında mühüm rol oynamış, bunun üçün əlverişli zəmin hazırlamışdır. Bu haqda ətraflı bəhs etmək hazırkı tədqiqatın başlıca məqsədinə aid olmasa da, diqqəti cəlb edən bir cəhətə də nəzər salmaq lazımdır ki, XX əsrin əvvəllərində maarifçilik Azərbaycan ictimai-fəlsəfi, sosial- siyasi fikrinin inkişafında özünün son mərhələini yaşasa da, bir ideya meyli, istiqaməti kimi təsirini heç də itirməmişdir.

Y.V. Çəmənzəminli Azərbaycanın yeni dövr ictimai-siyasi fikir tarixinin nümayəndəsidir. Onun dünyagörüşünün formalaşmasında yaşadığı dövrü, mühiti, aldığı təhsili ilə yanaşı, yeni mədəni inkişaf dövrünü yaşayan Avropanın böyük təsiri olmuşdur. Bu böyük sənətkarın dövrü, mühiti və fəaliyyəti ilə bağlı çoxlu əsərlər yazılsa da, bu cəhətdən hələ də həllini gözləməkdə olan məsələlər də az deyildir. Avropa mədəniyyətinə meyl, avropalaşma istəyi Çəmənzəminlinin yaradıcılığında xüsusi rol oynamışdır [6, s. 34].

Y.V. Çəmənzəminlinin bütövlükdə yaradıcılığında, onun gələcək fəaliyyətində Bakı mühitinin böyük rolu olmuşdur. O vaxtlar Rusiya imperiyasında yaşayan müsəlmanlar, o cümlədən gənc tələbələr üçün işıqlı bir mərkəz rolunu oynayan Bakı bütün Azərbaycan üçün ədəbiyyat, incəsənət və mətbuat meydanına çevrilmişdi. Ən qabaqcıl milli ziyalılar bu şəhərə toplaşırdı.

Y.V.Çəmənzəminlinin həyat və fəaliyyətində dərin iz buraxmış amillərdən biri də hüquq üzrə ali təhsil aldığı Kiyev mühitidir. Burada o, nəinki yüksək səviyyədə elmi biliklərə yiyələnmək, həmçinin qabaqcıl Avropa mədəniyyəti, həyat tərzi ilə yaxından tanış olmaq, bundan bəhrələnmək imkanlarını əldə edə bilmişdir. Doğma vətənindən uzaq olsa da, o həmişə Azərbaycada baş verən hadisələri diqqətlə izləmiş, gördüyü mədəni yeniliklərin vətənində də həyata keçirilməsi arzusunda olmuşdur. Onun həyatının Ukrayna, Türkiyə və Parislə bağlı anları Qərblə əlaqəsinin genişlənməsi ilə xarakterizə olunur [1, s. 46].

**Nəticə**

Soykükünə bağlılıqda milli varlığın ümdə şərtini görən Çəmənzəminlinin yaradıcılığının ilk illərindən Azərbaycanı öyrənmək, onu tanıtmaq kimi bu gün də aktual olan məsələni daha çox düşündürməsi mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Ağayev Ə. Azərbaycan maarifpərvərləri. Şəxsiyyət və onun formalaşması haqqında. B.: "Elm", 1974. 30 s.
2. Axundova M. Y.Vəzir yaradıcılığı haqqında. Ədəbiyyat və incəsənət, 1965, 17 iyul.
3. Əlioğlu M. Qüdrətli romançı və hekayələrimiz. Y.V.Çəmənzəminlinin anadan olmasının 80 illiyi. Azərbaycan gəncləri, 1967, 12 dekabr.

4. Hüseynova P.S. Y.V.Çəmənzəminlinin hekayələrində millilik. "Azərbaycan müəllimi" qəzeti 1999, 11-17 noyabr.
5. Məmmədov A. Y.V.Çəmənzəminlinin ömür yolu. "Ulduz" jurnalı, 1988 №10, 95 s.
6. Məmmədov B. Yaradıcılıq dairəsi. Y.V.Çəmənzəminli haqqında "Ədəbiyyat və İncəsənət" qəzeti, 1987,18 sentyabr.
7. Məmmədova D. Yazıçı və xalq hikməti. "Ulduz" jurnalı, 1977, №3, 65 s.

***Naxçıvan Dövlət Universiteti***
***II kurs magistr***
***E-mail: sunayesedova152@gmail.com***

**Sunay Asadova**
**ARTISTIC PATH OF YUSIF VAZIR CHAMANZAMINLI**

The main idea and goal of Chamanzaminli's artistic path, distinguished by his clear position, action and struggle in the literary and political environment, was national renaissance, education, being a worthy son of the motherland, Azerbaijanism, patriotism. Although he spoke positively about Turkism whenever possible, he preferred Azerbaijanism.

The specific study of the environment, artistic space and personality, historicity, nationality and modernity problems in Chamanzaminli's creativity is new and relevant. This is also important for clarifying other ideological-artistic features of the writer's creativity. Because experience shows that environment and artistic space play a special role in the development of a writer as an intellectual, artist and personality.

From this point of view, in the scientific-research work that we have presented, a brief look at the artistic path of a genius writer with rich idea-artistic creativity was given and the socio-political environment that formed the writer was considered.

**Keywords:** *oeuvre, subject area, writer, idea, literary environment.*

**Сунай Асадова**
**ТВОРЧЕСКИЙ ПУТЬ ЮСИФА ВЕЗИРА ЧЕМЕНЗЕМИНЛИ**

Главной идеей и целью творческого пути Чаманзаминли, отличавшегося его четкой позицией, действием и борьбой в литературно-политической среде, было национальное возрождение, воспитание, быть достойным сыном Родины, азербайджанство, патриотизм. Хотя он везде, где это было возможно, отзывался о тюркизме положительно, он предпочитал азербайджанизм.

Конкретное исследование среды, художественного пространства и проблем личности, историчности, национальности и современности в творчестве Чаманзаминли является новым и актуальным. Это важно и для выяснения других идейно-художественных особенностей творчества писателя. Потому что опыт показывает, что среда и художественное пространство играют особую роль в развитии писателя как интеллектуала, художника и личности.

С этой точки зрения в представленной нами научно-исследовательской работе дан краткий обзор творческого пути гениального писателя с богатым идейно-художественным творчеством и рассмотрена общественно-политическая среда, сформировавшая писателя.

**Ключевые слова:** *творчество, предметная область, писатель, идея, литературная среда.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 17.05.2024**
**Son daxilolma tarixi:05.06.2024**